## Riyaziyyat

1. $2x^2-(b-3)x-1=0$ tənliyinin kökləri cəmi 5 olarsa, $b$ -ni tapın.
A) 7 B) 13 C) 9 D) 5 E) 11

2. $n$-in hansı ən kiçik qiymətində $x^7y^8z^n$ birhədlisinin qüvvəti sadə ədəd olar?
A) 4 B) 8 C) 1
D) 0 E) 2

3. $\sqrt{8}-2$ ədədinin kəsr hissəsini tapın.
A) $\sqrt{8}-4$ B) $\sqrt{8}-3$ C) $\sqrt{8}-2$
D) $\sqrt{8}-1$ E) $\sqrt{8}$

4. Şəkildə çevrənin radiusu 12 sm, $AB$=24 sm olarsa, $\overset{\frown}{AnB}$ qövsünün dərəcə ölçüsünü tapın.




A) $120^\circ$ B) $100^\circ$ C) $200^\circ$
D) $150^\circ$ E) $180^\circ$

5. $a^2-b=(a-3)(a+c)$ eyniliyinə əsasən $b+c$ cəmini tapın. (Burada b və c parametrdir).
A) 10 B) 12 C) 6 D) 15 E) 9

6. $\dfrac{8}{2\sqrt{5}-4}$ kəsrinin məxrəcini irrasionallıqdan azad edin.
A) $4\sqrt{5}+8$ B) $8-4\sqrt{5}$
C) $\sqrt{5}-2$ D) $2+\sqrt{5}$
E) $2\sqrt{5}-4$

7. Bərabəryanlı üçbucağın perimetri 32 sm, oturacağı isə 12 sm-dir.Üçbucağın kiçik hündürlüyünü tapın.
A) 5 B) 6 C) 7
D) 8 E) 9

8. $\dfrac{4,2}{3,6}=\dfrac{a}{b}$, $a$ və $b$ ədədləri qarşılıqlı sadə ədədlər olarsa, $a+b$ cəmini tapın.
A) 15 B) 13 C) 16
D) 11 E) 18

9. $|a-2|+|5a-10|=12$ olarsa, $a$-nın mümkün qiymətləri hasilini tapın.
A) -10 B) -6 C) 8 D) 4 E) 0

10. Tərəfləri 8sm və 6 sm olan paraleloqramın böyük diaqonalı 12 sm-dir.Kiçik diaqonalın uzunluğunu tapın.
A) $\sqrt{48}$ B) $\sqrt{68}$ C) $\sqrt{56}$
D) $\sqrt{72}$ E) $\sqrt{88}$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

11. $\alpha$ və $\beta$ qarşılıqlı bucaqlar, $\alpha - 30^0 = 70^0 - \beta$ olarsa, $\alpha$ bucağına qonşu olan bucağı tapın.
A) $150^0$ B) $110^0$ C) $115^0$
D) $135^0$ E) $130^0$

12. Şəkildə *QN:NP:PM:MQ* = 3:7:4:4 olarsa, $\angle EPM$ –i tapın.




A) $40^0$ B) $55^0$ C) $60^0$
D) $75^0$ E) $80^0$

13. $5\frac{1}{6}$ və 5,2 ədədləri arasında yerləşən ədədi göstərin.
A) 5,16 B) 5,17 C) 5,02
D) 5,1 E) 5,15

14. $a^2 - 2a = 1$ olarsa, $a^2 + \frac{1}{a^2}$ ifadəsinin qiymətini tapın.
A) 1 B) 2 C) 3
D) 4 E) 6

15. Şəkildə 2AB=3BC və DC=5 olarsa, BD-ni tapın.




A) 12 B) 15 C) 8
D) 9 E) 10

16. Sadələşdirin: $\frac{x^3-64}{(x+1)(x+3)+13}$

A) 1 B) $x$-3 C) $x$-2 D) $x$-4 E) 2

17. *a* ədədi *b* ədədinin 80% -dir. *b* ədədi *a* ədədindən neçə faiz çoxdur?
A) 25 B) 30 C) 45 D) 50 E) 60

18. İki natural ədədin ən kiçik ortaq bölünəni 72, ortaq olmayan sadə vuruqlarının hasili isə 6-dır. Bu ədədlərin hasilini tapın.
A) 432 B) 504 C) 864
D) 720 E) 942

19. Rombun hündürlüyü 16 sm, diaqonallarından biri isə 20 sm olarsa, onun tərəfini tapın.
A) $15\frac{3}{4}$ B) $16\frac{5}{6}$ C) $12\frac{3}{8}$

D) $15\frac{1}{2}$ E) $16\frac{2}{3}$

20. Vuruğu kök işarəsi altına salın : $3a \cdot \sqrt[4]{-\frac{a}{81}}$
A) $\sqrt[4]{-9a^5}$ B) $-\sqrt[4]{-a^5}$ C) $\sqrt[4]{a^5}$

D) $-\sqrt[4]{a^5}$ E) $\sqrt[4]{-a^5}$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

21. $(x+17)\cdot 9=\overline{2yy}$ bərabərliyindən $x$+y cəmini tapın.
A) 19 B) 33 C) 23
D) 41 E) 35

22. $\left(3\sqrt[3]{2-3\sqrt{2}}-\sqrt[6]{22-12\sqrt{2}}\right)\sqrt[3]{\frac{3\sqrt{2}+2}{14}}$ ifadəsini hesablayın.
A) -3 B) -4 C) -1 D) 3 E) 4

**Açıq tipli test tapşırıqları:**

23. Diaqramda $A, B$ və $C$ çoxluqlarının elementləri təsvir edilmişdir.
$(A \setminus (C \setminus B)) \cap (B \cup C)$ çoxluğunun elementlərinin sayını tapın




24. Perimetri 39 sm olan ABC üçbucağında AD tənbölən, AB:BD:DC=7:6:3 olarsa, AC-ni tapın.

25. Uzunluğu 36 sm olan çevrədə $40^0$-li mərkəzi bucağa uyğun qövsün uzunluğu neçə sm-dir?

26. $a < 3$ olarsa, $\frac{|a-3|+|5-a|}{a-4}+4$ ifadəsinin qiymətini tapın.

27. Tənliklər üçün uyğunluğu müəyyən edin.
1. $(a-1)x=b+3$
2. $(a^2+4)x=b+2$
3. $3ax+1=9x+2b$
a. $a=3;\ b=0{,}5$ sonsuz sayda həlli var.
b. $a=1;\ b=-3$ olduqda sonsuz sayda həlli var.
c. $a$ və b-nin istənilən qiymətində yeganə həlli var.
d. $a=2;\ b=-2$ olduqda həlli yoxdur.
e. $a\neq 1$ olduqda həlli yoxdur.

***Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28–30 saylı test tapşırıqlarını yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

Əli, Adil və Həsən həyət evlərində qonşu olaraq yaşayırlar.Onların evləri bir düz xətt üzərində deyil.Evlər arasındakı məsafə 20 m, 20 m və 32 m –dir.

28. Məhəllədə yerləşən su çəni hər üç evdən bərabər məsafədə yerləşir.Bu məsafəni tapın.

29. Əli Adildən yaşca 2 dəfə böyük, Həsəndən isə 4 yaş kiçikdir.Onların yaşları cəmi 34 olarsa, Həsənin neçə yaşı var?

30. Həsənin yaşı Əlinin yaşından neçə faiz çoxdur?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
Time/BirlikTeam1

## Coğrafiya

31. 22 iyunda hansı məntəqədə gündüzün uzunluğu daha çoxdur ?




A) *A* B) *B* C) *C* D) *D* E) *E*

32. Həqiqi uzunluğu 40 m olan məktəb planda 8 sm-lə göstərilmişdir. Məktəbin həqiqi uzunluğu neçə dəfə kiçildilmişdir ?
A) 320 B) 5 C) 500
D) 32 E) 120

33. Doğru ***olmayan*** sıraları müəyyən edin.
1. Turan cavan platformada yerləşən akkumulyativ düzənlikdir
2. Meksika geosinklinalda yerləşən denudasion düzənlikdir
3. Orinoko geosinklinalda yerləşən akkumulyativ düzənlikdir
4. Padan cavan platformada yerləşən denudasion düzənlikdir
5. Qviana qədim platformada yerləşən denudasion düzənlikdir
A) 2, 4 B) 1, 3 C) 2, 5
D) 3, 4 E) 1, 5

34. Verilmiş nöqtələr üçün ümumi cəhət:




1. Platforma sahəsində yerləşirlər
2. Fiziki aşınma prosesi güclü baş verir
3. Fəal dağəmələgəlmə zonasında yerləşirlər
4. Geosinklinal qurşaqda yerləşirlər
5. Tektonik proseslər zəif baş verir
A) 1, 4 B) 2, 3 C) 2, 5
D) 3, 4 E) 1, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

35. Uyğunluğu müəyyən edin.
*I. Divergent sərhəd*
*II. Konvergent sərhəd*
1. Azor adaları
2. Kiçik Asiya yarımadası
3. Kaliforniya yarımadası
4. Kuril novu
5. Orta Atlantik silsiləsi
6. Filippin adaları
A) I – 1, 4, 6 ; II – 2, 3, 5
B) I – 1, 3, 5 ; II – 2, 4, 6
C) I – 2, 4, 5 ; II – 1, 3, 6
D) I – 2, 4, 6 ; II – 1, 3, 5
E) I – 1, 2, 3 ; II – 4, 5, 6

36. Paleozoy erasında baş verən mühüm hadisələr:
1. Tetis okeanında sonralar Qafqaz dağlarına çevrilən adaların yaranması
2. Lavrasiya və Qondvananın parçalanması və müasir materiklərin əmələ gəlməsi
3. İynəyarpaqlı və çılpaqtoxumlu bitkilərin yaranması
4. Aralıq, Qara, Xəzər və Aral dənizlərinin bir-birindən ayrılması
5. Kaledon və Hersin qırışıqlıqlarının baş verməsi
6. Pangeyanın Lavrasiya və Qondvana qurularına parçalanması
A) 1, 2, 5 B) 2, 4, 6 C) 3, 5, 6
D) 1, 3, 4 E) 2, 3, 5

37. Uyğunluğu müəyyən edin.
1. Paleozoy yaşlı süxurlar
2. Mezozoy yaşlı süxurlar
3. Kaynozoy yaşlı süxurlar




A) 1-e , 2-b,c, 3-a,d
B) 1-c,e, 2-b, 3-a,d
C) 1-b,c, 2-d,e, 3-a
D) 1-a, 2-c,d, 3-b,e
E) 1-d,e, 2-a,b, 3-c

38. Çökmə mənşəli süxurları seçin.
1. qum 2. çay daşı 3. mərmər
4. qranit 5. qneys 6. gil
A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 2, 6
D) 1, 4, 6 E) 2, 3, 5

39. Geoloji era, dağəmələgəlmə və dağların müvafiqliyi hansı sıralarda ***pozulmuşdur?***

| | | | |
|---|---|---|---|
| 1 | Paleozoy→ | Hersin → | Kopetdağ |
| 2 | Kaynazoy→ | Alp→ | Pamir |
| 3 | Mezozoy→ | Kimmeri→ | Kordilyer |
| 4 | Paleozoy→ | Kaledon→ | Kunlun |
| 5 | Kaynazoy→ | Hersin→ | Qafqaz |
| 6 | Mezozoy→ | Kimmeri→ | Çerski |

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 4, 5
D) 3, 4, 6 E) 1, 5, 6

40. Eyni uzunluqda yerləşən və 22 dekabrda günorta vaxtı Günəş şüalarının 66,5° bucaqla düşdüyü məntəqələr arasındakı məsafə 1: 22 200 000 miqyaslı xəritədə neçə sm olar?
A) 23,5 B) 12,5 C) 47
D) 15,2 E) 24,4

41. İki işıqlanma qurşağında yerləşən dağlar:
1. Qafqaz 2. Himalay
3. Skandinaviya 4. And
5. Verxoyansk 6. Alp
A) 1, 2, 5 B) 2, 4, 6 C) 3, 4, 5
D) 1, 4, 6 E) 2, 3, 5

42. Kəsmə yüksəkliyi 10 m olarsa, təpənin nisbi hündürlüyünü müəyyən edin.




A) 123 m B) 407 m C) 40 m
D) 47 m E) 50 m

43. A və B məntəqələri arasında qurşaq vaxt fərqini müəyyən edin.




A) 2 saat B) 6 saat C) 5 saat
D) 3 saat E) 4 saat

44. Şəkildə hansı proses təsvir edilmişdir ?




A) Abraziya
B) Deflyasiya
C) Karst
D) Akkumulyasiya
E) Ekzarasiya

45. Qütb (**I**) və mülayim (**II**) işıqlanma qurşaqlarına aid olan ifadələri diaqrama uyğun qruplaşdırın.




1. Fəsillər aydın müşahidə olunur
2. Gecə-gündüzün adi növbələşməsi pozulur
3. Günəş zenitdə olmur
4. Şimali Amerika və Avrasiya materikləri yerləşir

A) I – 1, 2 II – 3 III – 4
B) I – 3 II – 1,4 III – 2
C) I – 4 II – 3 III – 1, 2
D) I – 2 II – 1 III – 3,4
E) I – 3,4 II – 2 III – 1

46. Qobu adlanır:
A) yeraltı suların həlletmə fəaliyyəti
B) ot və kollardan ibarət qurumuş dərələr
C) hərəkət edən buzlağın süxurları dağıtması prosesi
D) küləyin aparılma, sovrulma fəaliyyəti
E) simmetrik quruluşlu qum təpələri

47. Yerin xəyali oxu orbit müstəvisinə $70^0$ meyilli olsaydı, yay gündönümündə ekvatora günəş şüaları hansı bucaq altında düşərdi ?
A) $80^0$ B) $60^0$ C) $66,5^0$
D) $90^0$ E) $70^0$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

48. Azərbaycanın relyefi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Böyük Kirs dağı Qarabağ silsiləsinin ən yüksək zirvəsidir.
2. Samur-Dəvəçi və Lənkəran ovalıqları abrazion-akkumulyativ düzənliklərdir.
3. Dağlıq ərazilərdə akkumulyasiya prosesi üstünlük təşkil edir.
4. Qarabağ vulkanik yaylasında və Qobustan alçaq dağlığında gətirmə konusları geniş yayılıb.
5. U-şəkilli dərələr əsasən düzənlik ərazilər üçün səciyyəvidir.
6. Arid-denudasion relyef formalarına Talış dağlarının alçaq dağlığında çox rast gəlinir.
A) 1, 2, 5 B) 1, 3, 6 C) 3, 4, 6
D) 2, 4, 6 E) 2, 4, 5

49. Coğrafi koordinatları $40^0$ şm. e. $150^0$ q.u. olan məntəqədən $90^0$ azimutla 4270 km hərəkət edən səyyahın çatdığı məntəqənin yerləşdiyi saat qurşağını və coğrafi koordinatlarını müəyyən edin.
A) IV ; $40^0$ şm.e $100^0$ q.u
B) XVII ; $40^0$ şm.e $100^0$ q.u
C) XIV ; $40^0$ şm.e $100^0$ q.u
D) VII ; $10^0$ c.e $100^0$ q.u
E) XIV ; $40^0$ şm.e $160^0$ ş.u

50. Müvafiq olaraq Afrika, Avrasiya və Antarktida materiklərində yerləşən vulkanlar:
A) Klimancaro, Ruapexu, Elbrus
B) Kamerun, Vezuvi, Erebus
C) Karisimbi, Orisaba, Ulavun
D) Kotopaxi, Etna, Klimancaro
E) Krakatau, Fudziyama, Şasta

51. Aşağıdakı hansı fikir Avstraliya materiki üçün doğru ***deyil*** ?
A) Ən hündür zirvəsi Mezozoy yaşlıdır
B) Qərb hissəsində kristallik süxurlar səthə çıxır
C) İki yarımkürədə yerləşir
D) Günəş üzərində zenitdə olur
E) Litosfer tavasının mərkəzində yerləşir

52. Xəritə-sxemdə Levçay, Filizçay və İpək yataqlarının rəqəmlərlə uyğunluğunu müəyyən edin.




A) 2, 1, 6 B) 3, 2, 6 C) 5, 6, 4
D) 1, 5, 6 E) 3, 2, 4



**Açıq tipli test tapşırıqları:**

53. Düzgün ***olmayan*** ifadələri müəyyən edin.
1. Xəritədə neft-qaz yataqları izoxətlər üsulu ilə təsvir edilir
2. Miqyas böyüdükcə kartoqrafik təsvirlərin dəqiqliyi artır
3. Coğrafi uzunluğun dərəcə qiyməti 0º - 180º arasında dəyişir
4. Üfüqin cəhətlərinin dərəcə qiyməti azimut adlanır
5. Xəritə kartoqrafik şəbəkəyə malikdir
6. Böyük sahəyə malik ərazilər planda miqyassız şərti işarələrlə təsvir olunur

54. 23 sentyabrda Günəş şüalarının 50° bucaqla düşdüyü məntəqələr şimal yarımkürəsində bir-birindən 4 saat 40 dəqiqə vaxt fərqində yerləşirlər. Məntəqələr arasındakı həqiqi məsafəni hesablayın.

55. Günəşin üfüqdə görünən hərəkətini əks etdirən şəklə əsasən müşahidəçinin ola biləcəyi coğrafi koordinatları müəyyən edin.




1. 45° şm.e., 75° q.u.
2. 23,5° şm.e., 15° q.u.
3. 0° e., 45° q.u.
4. 51° şm.e., 60° ş.u.
5. 23,5° c.e., 120° ş.u.
6. 44° şm.e., 110° q.u.

56. Dağ silsilələrini hündürlüyünə görə (yüksəkdən alçağa doğru) ardıcıl düzün.



57. Uyğunluğu müəyyən edin.
1. And dağları
2. Tyan-Şan dağları
3. Verxoyansk silsiləsi
a. Kimmeri qırışıqlığında yaranmışdır
b. Alp qırışıqlığında yaranmışdır.
c. Üç işıqlanma qurşağında yerləşir.
d. Yenidən fəallaşmış dağlardır.
e. Ən hündür zirvəsi 7000 m-dən yüksəkdir.

***Situasiya***

***Sizə təqdim olunmuş şəklə diqqətlə baxın və burada verilmiş məlumatlardan istifadə edərək 58-60 saylı tapşırıqları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər***




58. Tavaların adını rəqəmlərə uyğun şəkildə cədvəldə qeyd edin.

| İri tavalar | Kiçik tavalar |
|---|---|
| 1- Şimali Amerika | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

59. Cədvəli doldurun.

| Sıra | Tavaların adı | Tavaların hərəkət forması | Hərəkətin nəticəsi |
|---|---|---|---|
| 1 | Cənubi Amerika və Naska tavası | | |
| 2 | Şimali Amerika və Avrasiya | Ayrılma | |
| 3 | | | Himalay dağları |

60. Okeanların ən dərin novunun hansı tavaların subduksiya zonasında yerləşdiyini cədvəldə qeyd edin.

| Okeanlar | Ən dərin novu | Tavalar |
|---|---|---|
| Sakit okean | | |
| Atlantik okeanı | Puerto-Riko | |
| Hind okeanı | Zond | |

TimeBirlikTeam1

## Tarix

61. *Ağcabədi rayonundakı Kamiltəpə yaşayış yerində sümükdən və daşdan düzəldilmiş toxalar, oraq dişləri, çəkic, balta və s. alətlər tapılmışdır.*
Bu tapıntının aid olduğu dövr üçün düzgün fikirləri müəyyən edin:
1. Saxsı qabların hazırlanması
2. İstehsal təsərrüfatının mövcud olması
3. İlkin şəhər mərkəzlərinin yaranması
4. İnsanların əkinçilik və maldarlıq ilə məşğul olması
5. Üçüncü böyük ictimai əmək bölgüsünün yaranması
A) 3,5 B) 1,2 C) 1,2,4
D) 1,3,5 E) 3,4

62. I Toğrul və Orxan qazi üçün ümumi cəhətdir:
A) Sultan titulunun qəbul edilməsi
B) Paytaxtın köçürülməsi
C) Dövlətin dəniz dövlətinə çevrilməsi
D) Ərazinin paşalıq və sancaqlara bölünməsi
E) Bağdadın tutulması

63. Manna və Atropatena dövlətlərinə aid oxşar cəhət:
A) İctimai quruluşuna görə quldar, siyasi quruluşuna görə monarxiya dövləti olmaları
B) Selevki dövlətindən asılılığın qəbul edilməsi
C) Yunan – Makedoniya istilaçılarının varisi olmaları
D) İskit dövləti ilə siyasi münasibətlərin mövcudluğu
E) Romanın Respublika dövründə fəaliyyət göstərmələri

64. I Dünya müharibəsinə aid uyğunluğu müəyyən edin:




A) 2,3 B) 1,4,6 C) 3,5
D) 2,3,5 E) 1,6

65. Rəvvadi və Şəddadi dövlətlərinin mövcud olduğu dövrdə Azərbaycan ərazisində baş *verməyib:*
A) Alan yürüşlərinin baş verməsi
B) Oğuz türklərinin məskunlaşması
C) Tiflisin Şərqi Gürcüstanda ərəb əmirliyin mərkəzinə çevrilməsi
D) Əbüləsvar Şavurun hakimiyyətə gəlməsi
E) Təbriz şəhərində güclü zəlzələnin baş verməsi

66. Uyğunluğu müəyyən edin:

| | | |
|---|---|---|
| A) | Uluqbəy | Bağdadda “Nizamiyyə” mədrəsəsini açmışdı |
| B) | Mahmud Kaşğari | İlk Farmakologiya kitabını yazmışdı |
| C) | Xətib Təbrizi | Ulduz bürclərinin dövri adını vermişdi |
| D) | Nizamülmülk | XIV əsrin əvvəlində Təbrizdə mədrəsə yaradıldı |
| E) | Ömər Xəyyam | Məlikşahın şərəfinə “Cəlali təqvimi” tərtib etmişdi |

67. II Xaçlı yürüşünə aiddir:
A) Təbəriyyə döyüşündə xaçlılar məğlub oldu
B) Konstantinopol ələ keçirildi
C) Mosul hakiminin Edessanı tutmasına cavab olaraq başladı
D) Yürüş qalibiyyətlə yekunlaşdı
E) Səlahəddin Əyyubinin qüvvələri məğlub edildi

68. **Mətn-1**
*Ön Asiyada, Qafqazda və Kiçik Asiyada hələ də müstəqil fəaliyyət göstərən iri feodal malikanələrinə qarşı Ali monqol xaqanlığı tərəfindən mübarizəyə göndərilmiş monqol şahzadəsi Azərbaycanı və Bağdadı istila etdi və Abbasilər xilafəti süquta uğradı.*
**Mətn-2**
*Dərbənddən Azərbaycanda soxulan qüvvələr Təbrizə yaxınlaşdı. Təbrizlilər şəhərin müdafiəsinə qalxdılar. Qızıl Ordu hökmdarı danışıqlar aparmağa məcbur oldu. Tərəflər arasında razılıq əldə edildi. Əhali sülhə inanıb silahı yerə qoydu. Bundan istifadə edən qoşun şəhərdə ciddi dağıntılar törətdi, qarətlər etdi.*

I Mətndə bəhs edilən yürüşdən fərqli olaraq II Mətndə bəhs edilən yürüş üçün xarakterikdir:
1. Azərbaycan Cəlairi dövlətinin tərkibində idi
2. Cəlairilərin Azərbaycandakı hakimiyyətinə son qoyuldu
3. Elxanilər dövləti yarandı
4. Azərbaycan Toxtamış xanın hücumuna məruz qaldı
A) 1,4 B) 2,3 C) 3,4
D) 1,2 E) 1,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

69. Hülakülər dövlətinə ***aid deyil:***
A) Canı bəyin yürüşünə məruz qaldı
B) Məhəmməd Olcaytunun dövründə dövlət daha da gücləndi
C) XIV əsrin əvvəlində kəndlilər yaşayış yerinə təhkim edildi
D) Vergi toplanması 3 il müddətinə icarəyə verilirdi
E) Əmir Teymurun yürüşünə məruz qaldı

70. Ağsuvar xan və Mete xaqan üçün oxşar cəhətdir:
A) Çin ordusunun məğlub edilməsi
B) Sasani qüvvələrinin məğlub edilməsi
C) Düşmənə qarşı turan taktikasından istifadə
D) Feodalizm dövründə fəaliyyət göstərmələri
E) Tan süaləsinin himayə edilməsi

71. Aşağıdakı məlumatların heç birinin uyğun *gəlmədiyi* şəhəri müəyyən edin:




-Monqolların 2-ci yürüşündə dağıdılmış bu şəhər 1239-cu ildən bərpa olunmağa başladı
-Elxani vəziri Tacəddin Əlişah tərəfindən məscid tikilmişdir
-Nəsirəddin Tusinin rəhbərliyi ilə rəsədxana tikilmişdir
-Cahanşahın əmri ilə tikilən Göy məscid burada yerləşirdi
-Məsud Davudoğlu tərəfindən memarlıq abidəsi ucaldılmışdı
A) 1 B) 2 C) 3 D) 4 E) 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

72. Eyler – Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Teymuri qüvvələri ilə mübarizə aparırdı
b. Əsəd qəsəbəsi döyüşündə qalib gəldi
c. Şahrux ilə hərbi ittifaq bağladı
d. Ölümündən sonra Cahanşah taxta çıxdı
e. Alaşkerd döyüşündə məğlub oldu
A) 1-a; 2-b,c; 3-d
B) 1-a,d; 2-b; 3-c,e
C) 1-b; 2-d,e; 3-a
D) 1-e; 2-d; 3-a
E) 1-a,e; 2-c; 3-b

73. Göstərilənlər aiddir:
- *Rus kapitalistləri tərəfindən tikilmişdi*
- *Fəaliyyəti rus alimi D. Mendeleyevin köməyi ilə qaydaya salınmışdı*
A) Suraxanı Neftayırma zavodu
B) C. Məlikovun Bakı ağ neft zavodu
C) Bakı-Tiflis dəmir yolu xətti
D) Şəki İpək fabriki
E) Qalakənd misəritmə və missaflaşdırma zavodu

74. Verilmiş xüsusiyyətlərin aid olduğu qədim dövləti xəritədə müəyyən edin:
- *Ən məşhur tarixçilərindən biri Tit Livi olmuşdur.*
- *V əsrdə Vestqot və Vandallar tərəfindən talan edilmişdir.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

75. Uyğunluğu müəyyən edin:

AXC

**1.** 1919-cu il
- **a.** Gürcüstan ilə hərbi müdafiə paktı bağlandı
- **b.** De-fakto olaraq Paris sülh konfransı tərəfindən tanındı
- **c.** Milli şura İrəvanın ermənilərə güzəştə gedilməsi qərarını qəbul etdi

**2.** 1920-ci il
- **a.** Qacarlar dövləti ilə dostluq haqqında müqavilə bağlandı
- **b.** Azərbaycan Kommunist partiyası yaradıldı
- **c.** ABŞ prezidenti Parisdə Azərbaycan nümayəndə heyətini qəbul etdi

A) 1-a; 2-a,b B) 1-b; 2-a,c
C) 1-a,b; 2-a,b D) 1-c; 2-b
E) 1-b; 2-c

76. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Şumerdə təkərin ixtira edilməsi
2. Şumer şəhər dövlətlərinin Sarqon tərəfindən birləşdirilməsi
3.Misirin hakimiyyət uğrunda müharibələr nəticəsində zəifləməsi
4. I Tutmosun Fələstin və Suriyanı işğal etməsi
A) 2,3,4,1 B) 1,2,3,4
C) 4,1,2,3 D) 3,2,1,4
E) 1,2,4,3

77. Şirvanşahlar dövlətinin XII əsrin ikinci yarısı tarixi üçün xarakterikdir:
A) Səlcuq türkləri ilə dostluq münasibətlərinin bərpa edilməsi
B) Monqol yürüşünə məruz qalması
C) I Fribürzün Şirvanşah titulundan məhrum edilməsi
D) II Axsitanın Hülakülərin vassallığını qəbul etməsi
E) IV Davidin basqınına məruz qaldı

78. Monqolların Mərkəzi Asiyanın işğalını başa çatdırdıqdan sonrakı dövr üçün xarakterikdir:
1. Kalka döyüşündə rus-qıpçaq qoşunlarının məğlub edilməsi
2. Cənubi Çinin tutulması
3. Pekinin tutulması
4. Qaraqorumda qurultay keçirilməsi
5. Qaraqorum şəhərinin paytaxt seçilməsi
A) 1,2,3 B) 1,2 C) 4,5
D) 1,2,4 E) 2,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

79. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi bəndləri müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Teymurun 1398-ci il Hindistan səfəri | Dehli sultanlığının süquta uğraması |
| 2 | Batı xanın 1241-ci ildə qələbə qazanması | Polşa-alman və macarların məğlub edilməsi |
| 3 | Toxtamış xanın Cənubi Qafqaz və Mərkəzi Asiyaya yürüşlər təşkil etməsi | Teymurun Qızıl Ordu ilə müharibələrə başlaması |
| 4 | Özbək xanın islam dinini rəsmi dövlət dini elan etməsi | Qazan, Həştərxan, Krım xanlıqlarının Qızıl Ordudan ayrılması |
| 5 | Sərbədarilər hərəkatının başlanması | Teymurilər dövlətinin zəifləməsi |

A) 2,4 B) 3,5 C) 2,3
D) 1,4 E) 1,5

80. Kulikovo və Terek döyüşləri üçün oxşar cəhətdir:
A) Qızıl Ordu ilə Teymurilər dövləti arasında baş vermişdir
B) XIV əsrin birinci yarısında baş vermişdir
C) Qızıl Ordu məğlubiyyətə uğradı
D) Əmir Teymur qalib gəldi
E) Moskva knyazlığı məğlub edildi

81. Şeyx Cüneyddən fərqli olaraq Şeyx Heydər:
1. Uzun Həsən tərəfindən ordenin irsi taxtına oturduldu.
2. Samur döyüşündə məğlub oldu
3. Şirvanşah – Ağqoyunlu qüvvələrinə məğlub oldu
4. Cahanşahın tələbi ilə Ərdəbili tərk etdi
A) 1,3 B) 2,4 C) 1,2
D) 2,3 E) 1,4

82. IX - XI əsrlərdə Azərbaycanda torpaq mülkiyyət formasında edilmiş dəyişiklik:
A) Dastakert və xostaq adlanan torpaq mülkiyyəti yarandı
B) Vəqf torpaqlarının icarəyə verilməsinə başlandı
C) Dövlət torpaqları divan və xalisə torpaqlarına bölündü
D) Gezit adlanan can vergisi cizyə ilə əvəz edildi
E) Xaraq adlanan torpaq vergisi məhsulla alınmağa başladı

**Açıq tipli test tapşırıqları:**

83. “Yüzillik müharibə” illərinə aiddir:
1. İngiltərədə “Böyük azadlıqlar xartiyası”nın imzalanması
2. Fransada kilsə torpaqlarından vergi alınmağa başlanması
3. İngiltərə və Avropanı vəba epidemiyası bürüməsi
4. İngiltərədə mütləq monarxiyanın yaranması prosesinin başlanması
5. Fransada kral tərəfindən daimi qoşun yaradıldı və toplardan istifadəyə başlandı

84. Dehli sultanlığında Məmlüklər sülaləsinin hakimiyyəti dövrünə ***aid deyil:***
1. Monqol hücumlarına qarşı mübarizə aparılırdı
2. Raziyə sultanın hakimiyyətə gəlməsi
3. Zəmindarlardan alınan torpaqlar kəndlilərə icarəyə verildi
4. Sultan Əlaəddin Cənubi Hindistanı tabe etdi

85. AXC-nin Gəncə dövrünə aiddir:
1. Dövlət bayrağı haqqında qərar qəbul edildi
2. Müsəlman korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı
3. Azərbaycan parlamenti fəaliyyətə başladı
4. Naxçıvan general - qubernatorluğu yaradıldı

86. Ağqoyunlu dövlətinin mövcud olduğu dövrə uyğun gəlir:
1. Trabzon krallığının süqut etməsi
2. Şəməsi döyüşünün baş verməsi
3. Kənqaş adlanan qapalı məşvərət orqanının fəaliyyəti
4. Dərbəndilər sülaləsinin fəaliyyətinin sona çatması

87. Uyğunluğu müəyyən edin:
1. I Toğrul
2. Alp Arslan
3. Məlikşah
a. Paytaxt Reydən köçürüldü
b. Konya və Ankara şəhərləri tutuldu
c. Tiflis, Ani, Qars şəhərləri tutuldu
d. “Şərqin və Qərbin hökmdarı” elan edildi
e. Dövlətin ərazi bütövlüyü pozularaq iki yerə parçalandı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Heydərin Şirvana hücumu zamanı Mahmudabad şəhərində ona müqavimət göstərmiş əhali qızğın döyüşdən sonra məğlub edilmişdi. Lakin Heydər bu qələbədən sonra ehtiyat edərək, Şamaxıya deyil, Dərbəndə hücumu qərara aldı. Vəziyyətin təhlükəli olduğunu anlayan Fərrux Yəsar kürəkəni Yaqub padşahdan kömək istəməyə məcbur oldu. Bu kömək və Şirvan döyüşçülərinin hərbi bacarığı nəticəsində Heydər Tabasaranda məğlub edildi. Beləliklə, Səfəvilərin siyasi hakimiyyəti əldə etmək uğrunda hələ XV əsrin ortalarında başlanmış mübarizəsi növbəti müvəffəqiyyətsizliyə uğradı. Yaqubun ölümündən sonra idarə etdiyi dövlət vaxtaşırı baş verən saray çevrilişləri nəticəsində zəifləmişdi. Şahzadələr: Əlvənd Mirzə və Murad Mirzə arasında çəkişmələr baş verirdi.

88. Mənbədə bəhs edilən döyüşün mənbədə qeyd edilməyən nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin: (Azı iki nəticə)

89. Mənbədə bəhs edilən Dərbənd hücumunun qarşısını almaq üçün birləşən dövlətləri tarixi biliklərinizə əsasən müəyyən edin:

90. Mənbədə bəhs edilən şahzadələr arasında çəkişmələrin nəticələrini müəyyən edin: (Azı iki nəticə)

t.me/BirlikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1